

## MÜXƏMMƏD HAQVERDİ

***1952-ci ildə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində doğulub. 1975-ci ildə BDU-nun mexanika-riyaziyyat fakultəsini bitirib. Orta məktəbdə işləməklə yanaşı bədii yaradıcılıqla məşğul olub, şeirləri mərkəzi mətbuat səhifələrində çap olunmuşdur. İki kitab müəllifidir. ("Bu dərd mənə ağırdır" və "Ömrün naxışları")***

### *BİR EL MƏSƏLİNƏ*

"Araz axır,
gözün baxır" -
deyərdilər anam, atam.
Bu onların anlamında
həyata bir baxış idi.
çalış idi,
vuruş idi...
Yapacağım gələcəyin
zirvəsinə naxış idi.
Yollarımdan
zülmət qovan işıq idi...
Xoşbəxtliyə cəzb eyləyən
üfüq idi.
O həyatı öyrənc idi,
O söz adlı güvənc idi.

### *ETÜD*

Mayın içində
Təəccüblü olsa da,
Qızmar istinin
İzi ilə,
Soyudu hava.
Bir azdan külək əsdi,
əsdi, əsdi...
Səma bir az da
Tutqunlaşdı,
O günün axşamı
Yağış yağdı,
O da çox yox ha
Bir az
Dəqiqə olmaz
Göydən Ay gülümsədi,
Yağışdan sonra,
Şüalarını yaşıl-yaşıl
Nimçələrdə yudu.
Sakitləşdi gecə,
Elə bil sükut
Uddu gecəni.

### *BAYATI*

Yanırıq vətən sarı,
Kaş dönək vətən sarı.
Köçkünlükdə övladlar,
Yadlaşır vətən sarı.

### *...GƏLİR*

Dünyanı duymaq,
İdrakdan gəlir.
Torpağı sevmək,
İmandan gəlir.

Sev torpağını,
Sev bayrağını,
Öldür yağını,
Qurandan gəlir.

Qarabağ dərdin,
Şəhidlər əkdi,
Azadlıq əhdin,
Onlardan gəlir.

Torpaq davası,
Sərtdir havası,
Düşmənin yası,
Ordudan gəlir.

## AR EYLƏMİŞƏM

Gözəlim üz tutub bir bizə gəlsən,
Yolunu işıldağ, nur eyləmişəm.
Bir yol ki, ilk dəfə üz-üzə gəldik,
O yolu ziyarət, pir eyləmişəm.

Bu sevgi atəşim sönəsi deyil,
Ötərgi istəyi, həvəsi deyil,
Öl desən, öl desəm öləsi deyil,
Qəlbim zirvəsində yer eyləmişəm.

İnsanlar qocalır, məhəbbət ölmür,
Nə gecə sonlanır, nə ulduz sönür,
Bu dəli eşqim də vüsaldan dönmür,
Haqverdiyəm eldən ar eyləmişəm.

## HALALLIQ YADDAN ÇIXDI

Halallıq yaddan çıxdı,
Biz tamahı böyütdük.
Ağzımızda günbəgün,
Haram qida üyütdük.

İnsanlığı ucuzladıq,
Babaların ziddinə.
Tərbiyəni az düşündük,
Gəlmədik haqqa, dinə.

Allah bizi bağışlamaz,
Qalibdir saxtakar düzə,
Şeytan bizə başçı oldu,
Günah doldu içimizə.

## SÜBH ÇAĞI

Gecənin ulduz naxışlı
köynəyi
Didilər, süzülər...
Anların axarında
Çılpaqlaşan gecə,
Mürgülü səma
sübhü eynək kimi
Gözünə taxar...
Bu gözəlliyə,
bu ilahi ana,
Həm mən baxaram
Həm də göydən Allah baxar.

Qalmışam gözləyə-gözələyə
Bəxtimin
Həsrətimin səhəri
açılsın deyə.

## DÜNYA, HARA FIRLANIRSAN?

Haram halaldan ləzzətli,
Pis yaxşıdan hörmətli,
Yalan doğrudan cürətli
təzadların
səsinə karsan, səhvinə korsan.
Heyf, bu gedişlə
dünya, hara fırlanırsan?!

## ŞAİR

***M. Misirə***

Bir şair gedir,
onu özəlləyən
fikrin,
ilhamın içi ilə
gedir... təzə sözdən,
təzə fikirdən
sərxoş şair
gedir sözə sarı,
fikrə sarı...
Özündən xəbərsizdir
sözün nuruna
həris şair.
Onu yol aparır,
toxunmayın,
Pozmayın fikir,
xəyal dincliyin.
Siz Allah!
Şərə ortaq olmayın
Şairə kömək olun!

## ÇAĞIRIŞ

Günlər yığılır üst-üstə,
Sən Allahdan
İlahi bir gün istə.
Şəhid məzarları,
Boy atmasın.
Sərhədlərimizdə atəşkəsi
Pozanların
Silahları sussun,
Ağacların yarpaqları,
Gül ləçəkləri,
Atəşlərlə didik-didik olmasın!
Torpağına sığınmışların,
Bəxtinə od yağmasın.
Xocalının qisası qiyamətə,
Fəridin, Mübarizin
Qanı yerdə qalmasın!